Respublika.-2019.-4 dekabr.-S.4.

# Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunun banisi



**XX əsr tariximizin parlaq siması, böyük şəxsiyyət olan ümummilli lider Heydər Əliyevin siyasi portreti Azərbaycan xalqının dövlətçilik təfəkkürünün, tarixin sınağından şərəflə çıxmış unikal idarəçilik məktəbinin, müasir ictimai-siyasi, fəlsəfi fikrin ən davamlı keyfiyyətlərinin canlı təcəssümüdür.**

Tarixşünaslıq elmi Heydər Əliyev şəxsiyyətini öyrəndikcə, əslində, müstəqil Azərbaycan dövlətinin tarixi keçmişini, bu gününü, ölkəmizdə həyata keçirilən dövlət quruculuğu prosesini öyrənir. Ulu öndər insanların həyat yoluna işıq saçan təfəkkür və mənəviyyat sahibi idi. Heydər Əliyevin yeritdiyi siyasət, istifadə etdiyi diplomatik üsullar onun uzaqgörənliyini, strateji təfəkkürə sahib olduğunu təsdiq edirdi. Beynəlxalq müstəvidə dünya liderləri də Heydər Əliyevi zəmanəni qabaqlayan dünya miqyaslı dövlət xadimi kimi qəbul edirlər.

Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı olan ulu öndər öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə nail olub. Ümummilli liderimiz, dahi şəxsiyyət Heydər Əliyevin həyatı və fəaliyyəti xalqa xidmət simvoludur. Heydər Əliyev idarəetmə fəlsəfəsinin fonunda görülən işlər xalqın milli dövlətçilik məfkurəsini daha da inkişaf etdirmişdir. Ulu öndər Azərbaycanın inkişaf potensialını sistemləşdirərək milli maraqlarımızı müdrikliklə reallaşdıra bilmişdir.

Heydər Əliyevin siyasi liderlik keyfiyyətləri, fenomenal şəxsiyyəti, dünyada güclü nüfuzu və strateji məharəti ilə Azərbaycan uğrunda gedən ən kəskin geosiyasi mübarizə və ziddiyyətləri, onların ölkəmizə mənfi təsirlərini tam neytrallaşdırmağa və mübarizədən qalib çıxmağa müvəffəq olmuşdur. Bununla da dövlətçiliyimizin xilaskarının -Heydər Əliyevin dühası sayəsində Azərbaycan uğurlu dövlət modelini formalaşdırdı, gələcək mövcudluğunu və yüksəlişini təmin etdi. Ulu öndərin hakimiyyətə qayıdışı ilə tərəqqi yoluna qədəm qoyan Azərbaycanın suverenliyi, milli mənafeyə əsaslanan inkişafı əbədi, dönməz xarakter aldı, davamlı iqtisadi inkişaf üçün möhkəm təməl yaradıldı, xalqın milli-mənəvi və özünüdərk ruhu, vətəndaşlıq və azərbaycançılıq məfkurəsi yüksəldi. Heydər Əliyevin hakimiyyətinin ikinci dövründə —Azərbaycanda ümumbəşəri dəyərlərə söykənən demokratik, hüquqi, dünyəvi və müasir dövlətin ideoloji əsasları və strateji inkişaf istiqamətləri formalaşdırıldı.

1993-cü ildə xalqın təkidli tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkədə bərqərar olmuş ictimai-siyasi sabitlik müasir, müstəqil, dünyəvi, demokratik, hüquqi dövlət quruculuğunun həyata keçirilməsi üçün münbit şərait yaratdı. Əsl siyasi lider keyfiyyətlərini bütün parlaqlığı ilə nümayiş etdirən ümummilli lider xalqı səfərbər etməklə, çox qısa müddətdə müasir siyasi inkişaf ideyalarını reallaşdırmağa müvəffəq oldu. Milli dövlət quruculuğu islahatlarının uğurla həyata keçirilməsi, qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması, demokratik dəyərlərə əsaslanan hüquq sisteminin formalaşdırılması, söz və vicdan azadlığının təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olması, sosial ədalət prinsiplərinə, bəşəri dəyərlərə, Azərbaycan xalqının milli mənafelərinə əsaslanan milli dövlətçilik modelinin formalaşmasını şərtləndirdi.

Azərbaycanı bir dövlət kimi məhv olmaq vəziyyətindən xilas etmək, həm siyasi, həm iqtisadi, həm də sosial-mənəvi böhrandan çıxarıb ölkədə ictimai-siyasi sabitliyi və milli təhlükəsizliyi təmin etmək, ölkə iqtisadiyyatını bərpa edib inkişafa nail olmaq, hüquqi demokratik islahatları həyata keçirərək demokratik vətəndaş cəmiyyətinin bərqərar edilməsi, müstəqil hüquqi dövlət quruculuğuna nail olmaq kimi təsəvvür edilməz dərəcədə çətin, mürəkkəb, şərəfli tarixi missiyanın öhdəsindən Heydər Əliyev çox məharətlə gəldi və Azərbaycanı xilas edə bildi.

Ölkənin hüquq sistemi hüquqi-demokratik dövlət, azad sahibkarlıq, bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın qurulması ilə bağlı yaranmaqda olan yeni ictimai münasibətləri tənzimləyə bilməsi üçün yenidən qurulmalı, bu sahədə köklü, mütərəqqi islahatlar həyata keçirməyi və bu proses Əsas Qanunun - Konstitusiyanın hazırlanıb qəbul edilməsi ilə başlamalı idi. İlk növbədə Azərbaycan xalqının və Azərbaycan dövlətinin bilavasitə köklü mənafeləri ilə bağlı məsələlər Konstitusiyada təsbit olunmalı, hüquq sistemi, onun ayrı-ayrı sahələri məhz Konstitusiyanın müddəaları əsas götürülməklə yenidən qurulmalı idi. Məhz bu baxımdan ulu öndər Heydər Əliyev Konstitusiya layihəsinin hazırlanmasına və ümumxalq səsverməsi yolu ilə qəbul edilməsinə böyük önəm verirdi. Beləliklə, Heydər Əliyevin müdrikliyi, gərgin əməyi nəticəsində müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının layihəsi hazırlandı və 1995-ci il noyabrın 12-də referendumda qəbul edildi. Xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olması, hakimiyyətin bölgüsü, hüququn aliliyi, mülkiyyətin bütün növlərinə bərabər hüquqi status verilməsilə, onun toxunulmazlığı və sair mütərəqqi bəşəri dəyərlərin, əsas insan hüquq və azadlıqlarının təsbit olunduğu Azərbaycan dövlətinin ali məqsədinin insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi olduğunun təsbit edildiyi Konstitusiyamızın qəbulunun Azərbaycan Respublikası üçün böyük tarixi əhəmiyyəti var idi.

Konstitusiyanın qəbulundan cəmi bir neçə ay sonra Heydər Əliyevin 21 fevral 1996-cı il tarixli sərəncamı ilə Hüquqi İslahat Komissiyası yaradıldı ki, bu Konstitusiyaya da şəxsən o, özü rəhbərlik edirdi. Peşəkar hüquqşünasların üzv olduğu komissiyanın rəhbərliyi ilə hazırlanmış “Məhkəmələr və hakimlər haqqında”, “Konstitutsiya məhkəməsi haqqında”, “Vəkillər və vəkillik fəaliyyəti haqqında”, “Prokurorluq haqqında”, “Polis haqqında”, “Əməliyyat fəaliyyəti haqqında” Azərbaycan Respublikasının qanunlarının qəbulu hüquq islahatları sahəsində mühüm addımlar oldu.

Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə ölkəmizin məhkəmə-hüquq, prokurorluq sistemində həyata keçirilən islahatlar Azərbaycan dövlətinin hüquq siyasətinin həyata keçirilməsində rolunun əsaslı şəkildə artmasına səbəb oldu. Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi, demokratiyanı bir tərəfdən insan hüquqları, digər tərəfdən isə dövlət quruculuğu və dövlət hakimiyyətinin təmin olunması təşkil edir, ona görə də aparılan hüquq islahatları çərçivəsində prokurorluq və digər hüquq-mühafizə orqanlarının fəaliyyəti dövlət konsepsiyasına uyğun təkmilləşdirilmiş, yeni qanunvericilik bazası yaradılmış, onların maddi bazası əhəmiyyətli dərəcədə gücləndirilmişdir. Ölkə prokurorluğu çoxillik tarixə malik olsa da, müasir prokurorluq sisteminin formalaşması və müasirləşməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. İlk milli Konstitusiyamızda prokurorluğa ayrıca maddə həsr edilərək, dövlət idarəetmə sistemində bu təsisatın yeri müəyyənləşdirilmiş, ilk dəfə olaraq prokurorluq orqanlarına konstitusion status verilmişdir.

Heydər Əliyevin rəhbərliyi ilə 1998-ci ilin 28 noyabr tarixində keçirilmiş Azərbaycan prokurorluğu orqanlarının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda dərin məzmunlu nitq söyləyən müdrik rəhbər demişdir: “İlk dəfədir ki, Azərbaycanda prokurorluğa belə diqqət və qayğı göstərilir və prokurorluq günü, prokurorların peşə bayramı müəyyən olunubdur. Hesab edirəm ki, müstəqil Azərbaycanın prokurorluğu və prokurorluq orqanlarının əməkdaşları belə bir bayrama layiqdirlər”.

Ulu öndərin həyata keçirdiyi hüquq islahatları çərçivəsində 1999-cu ilin dekabr ayında qəbul edilmiş “Prokurorluq haqqında Azərbaycan Respublikasının Qanun”unda prokurorluğun fəaliyyətinin forma və metodlarının demokratik prinsiplərə uyğunlaşdırılması, bu təsisatın sistemi və təşkili, səlahiyyətləri və vəzifələri, kadr təminatı və işçilərin sosial müdafiəsi, fəaliyyəti ilə bağlı digər məsələlərin beynəlxalq standartlara uyğun tənzimlənməsi nəzərdə tutulmuşdur.

Xalqımızın dahi oğlu, dünya şöhrətli dövlət xadimi, müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin siyasi kursunu və inkişaf strategiyasını uğurla davam etdirən Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə prokurorluğun fəaliyyəti dünya standartları səviyyəsində təkmilləşdirilərək dövrün tələblərinə cavab verən müasir orqana çevrilmişdir.

Son illərdə ölkədə insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasında kompleks tədbirlər həyata keçirilir. Heydər Əliyev! Bu ad bizim üçün nə deməkdir? Bu şəxsiyyət dövləçiliyimizin qorunub saxlanılması, möhkəmləndirilməsi və bərqərar olması, dünyaya inteqrasiya, ölkəmizin dinamik inkişafı, modernləşməsi, xalqımızın vəhdəti, siyasi sabitlik, təhlükəsiz şəraitdə yaşamaq, insanlığa və bəşəriyyətə örnək ola biləcək, xalq ilə iqtidarın birliyi, bir sözlə, bizi əhatə edən cəmiyyətdə qəbul ediləsi, bəşəriyyətə və insanlığa əsrlərlə xidmət göstərə biləcək ülvi amillərin milli Konstitusiyanın qəbulu ilə təsbitinə Azərbaycanda nail olmuşdur.

**Fuad MƏMMƏDOV,**
**Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Silahlı Qüvvələrdə Qanun Pozuntuları barədə məlumatların araşdırılması şöbəsinin rəisi, ədliyyə polkovniki.**